

*Sabir HÜSEYNOV,*
*"Kənd həyatı" qəzetinin baş redaktoru, AJB-nin üzvü, prezident mükafatçısı*

# YALAN

## *(sənədli hekayə)*

*(Əvvəli ötən sayımızda)*

Yayın isti, adamı yandıran çağı idi. Heç nə olmamış kimi əl-ələ tutub Kirov (indiki Şəhidlər Xiyabanı) parkına gəzməyə çıxmışdılar. İlqarın ürəyindən qara qanlar axırdı. Bilirdi ki, bu, sonuncu görüşdü.

Pilləkənlərin üstündə dayanıb Xəzərə baxırdılar. Sükutu Sevinc pozdu:

- Bizim Xəzər necə də gözəldir, sanki şəhərə layla çalır.

İlqar ona cavab vermədi, susdu, içi od tutub yanırdı. Qəfildən soruşdu:

- İlham kimdi, hansı dayının oğludur?
- Bu qəfil sual Sevincin on qatından keçsə də, halını pozmadı.

- Bəs, deyirdin atam ölüb?

- Bizim üçün o vaxtdan ölüb...

İlqar Sevinci sınamaq istədi:

- De, sən ol İlham dayım oğludur.

Sevinc gülümsündü:

- Ay dəli, İlham doğmaca dayım oğludur.

Bu sözü eşidən İlqarın əsəbləri tarıma çəkildi, özünü ələ ala bilmədi, qəfil açılan şillə Sevincin sifətində bomba kimi partladı. Qız ağlaya-ağlaya pilləkənləri düşməyə başladı. Sonra nə fikirləşdisə dayanıb arxaya döndü:

- Bu şillənin cavabını bir yox, beş qat alacaqsan. İlham bunun əvəzini səndən çıxacaq.

İlqar ona cavab vermədi, amma şilləni vurduğuna peşiman olmuşdu. Sevdiyi, istədiyi qıza qarşı etdiyi kobudluğu özünə yaraşdırmadı.

Sevinc ağlaya-ağlaya evlərinə qayıtdı. Güzgüyə baxdı. İlqarın barmağının izləri əməlli-başlı görünürdü. Aynur xanım qızından nə baş verdiyini soruşdu:

- Ağlamısan, nəsə olub?

Sevinc ağlaya-ağlaya:

- İlqarnan dalaşdıq, məni vurdu. İlhamın kim olduğunu, atamın ölmədiyini öyrənib.

Aynur xanım:

- Sənə demişdim, bu çoxbilmiş gədə axırımıza çıxacaq, gör haralara baş vurub. Sən onnan yola gedə bilməzsən, atası da çoxbilmiş adamdı. Üzüyünü at üstünə, rədd olub getsinlər, ölməmişəm, səni ondan da yaxşı oğlana ərə verəcəm. İlham gəlsin, onu yerində oturdar. Mənim qızımı vuran hələ anasından olmayıb...

Səhəri günü İlqar işə çıxmışdı. Ürəyinə dammışdı ki, harada olsa İlham gələcək. Şəhər telefonu ilə danışıb dəstəyi asdı. Elmira xanım qapını astaca döydü:

- İki nəfər oğlan sizi soruşur.

- Buraxın gəlsin.

Elmira xanım oğlanların bayırda gözlədiyini deyəndə İlqar qalstukunu çıxarıb çölə çıxdı. İlhamla Sevincin qardaşı Hüseyn onu gözləyirdi.

İlham irəli yeriyib İlqara salam verdi, heç nə olmamış kimi hal-əhvalını soruşdu. İlqar onun salamını alıb otağa dəvət etdi:

- Buyurun, nə sözünüz var, eşidirəm.

İlham onu kənara çəkib o günkü məsələdən danışdı:

- Yaxşı iş görməmisən, həkim qızdır, onun da mənliyi var. Adam da nişanlısına əl qaldırar?

İlqar:

- Bu boyda yalanı səndən gizlətsələr, nə edərdin?

İlham dedi ki, Hüseyn bizi eşitmir. Mən bir neçə aydan sonra evlənib gedirəm, ağıllı adam bu var-dövlətdən keçməz. Aynur da keçiləsi qadın deyil. Ağlın olsun, Sevinclə ailə qur. Aynur səni əllərinin içində saxlayacaq...

İlqarın əsəbləri tarıma çəkildi:

- Ə, sən nə şərəfsiz adamsan, əl-ayağım dəyməmiş buradan rədd dol, yoxsa əlimdən xəta çıxacaq.

İlqarın boz üzünü görən İlham heç nə deməyib çıxıb getdi.

Səhəri gün Sevinc İlqara zəng edib görüşmək istədiyini bildirdi:

- Nərimanov parkında gözləyəcəm, sözümü yerə salma, mütləq gəl.

- Yaxşı gələrəm.

İlqar görüş yerinə gec gəlmişdi. Sevinc onu əvvəllər olduğu kimi qarşıladı. Hal-əhvalını soruşdu, zarafatından da qalmadı:

- Subaylıqdan bezməmisən?

İlqar onun üzünə baxdı. Elə bil Sevincin gözlərinin işığı öləzimişdi, günah işləmiş adamlar kimi xəcalət hissi keçirirdi. İlqarın Sevincə yazığı gəldi:

- Hamısı anasının günahlarıdı, yazıq qızı yalan danışmağa məcbur edib. Onu yarı yolda necə buraxım, mənimlə keçirdiyi aylara, illərə necə tüpürüm, nişan üzüyünü hələ də barmağından çıxartmayıb...

İlqarın ürəyi yumşaldı, ötən günlər, xoş xatirələr yadına düşdü, Sevincin əlini əlinə alıb dilləndi:

- Nə qərara gəldin, ananla danışdın?

Sevinc ağladı:

- Ayrılmaq istəmirəm, üzüyü çıxartmağa da ürəyim gəlmədi, anama yalvardım ki, bizi ayırmasın. Birtəhər anam razı salmışam. Amma onun da şərtləri var.

İlqara Aynur xanımın şərtləri maraqlı gəldi:

- Buyur, şərtlərini de.

- Anam deyir ki, İlqar bizimlə yaşasın, lap istəsə şəhərin mərkəzində ona dörd otaqlı ev də alaram, maşın alaram, vəzifəyə qoyduraram, ancaq gərək mənim sözümdən çıxmaya, mən nə desəm onu edə. İlqar gülümsündü:

- Deməli, anan məni satın almaq istəyir?! Bu, mümkün deyil. Onun heç nəyini istəmirəm. İstəyim odur ki, səni rahat buraxsın.

Sevincin gözləri güldü:

- Məni bağışlayırsan?

- Bir şərtim var, əl-ələ tutaq gedək evimizə, ailə quraq, xoşbəxt yaşayaq, amma anan bizim ailəyə müdaxilə etməsin, bizdən uzaq olsun. Bu, mənim sevgimizə olan son borcum, ehtiramımdır...

- Mən anamın dediyindən çıxa bilmərəm, anam nə desə elə də olacaq...

İlqar yazıq-yazıq onun üzünə baxdı:

- Vaxt gələcək, peşiman olacaqsan, özün bilən məsləhətdir...

Sevinc qəti qərarını bir daha bildirdi:

- Anamın sözü mənim üçün hər şeydən üstündür.

İlqar heç nə demədi. Sevincdən ayrılıb metroya düşdü. İndi onu Sevinc yox, atası Əsəd kişi maraqlandırırdı; Kəndə nə üzlə qayıdacam, atamın üzünə necə çxacam.

Atası ilə çəkdirdiyi şəklin qarşısında dayanmışdı. Ürəyi dolu idi, üzünü şəklə tutub danışırdı:

- Canım ata, yadındamı, birinci kursda oxuyanda qış ayı tətilə gəlmişdim. Dağlara qar yağmışdı, kəndimizə avtobus işləmirdi. Səhər tezdən oyanıb Sarıyalın ətəyi ilə Göyəlli kəndinə gəldik. Əlində, çiynində xeyli yük götürmüşdün. Bir dəfə gileylənib of dediyini eşitmədim... İndi hansı üzlə, hansı ürəklə yanına gəlim? Axı, mən böyük günah işləmişəm, iyirmi yeddi ildə bircə dəfə sözünü yerə salmışam, ürəyinə toxunmuşam, üz-üzə, göz-gözə səninlə necə dayana bilərəm? Ürəyim çırpınır, evimizə getmək istəsəm də, ayaqlarım getmir.

İlqarı ağlamaq tutmuşdu. Doyunca ağladı, üz-gözünə su vurub özünə gəldi. Sonra qəlbində baş qaldıran həsrət dolu bir arzu ona yol göstərdi:

- Atalar səhvi bağışlayan olur, kəndə get, ata-ananla görüş, onlar yolunu gözləyir... Axşam qatarla yola düşdü. Qovlar stansiyasında qatardan düşüb avtobusu gözlədi. Oradan kəndlərinə xeyli yol var idi. Əzablı, əziyyətli yollar onsuz da onu yormuşdu. Axşamüstü evlərinə çatdı. Həyətdə heç kim yox idi. Qapının kənarında dayanmışdı, sanki əlləri, qolları bağlanmışdı, qapını açmağa cəsarəti çatmırdı, ürəyi elə döyünürdü ki...

Qapını anası açdı. Ana oğlunu bağrına basdı, üz-gözündən öpdü. İlqar atasına tərəf baxıb, başını aşağı saldı. Ona tərəf getməyə xəcalət çəkirdi. Günah sahibi kimi dizləri titrəyirdi.

Əsəd kişi oğlunun nələr çəkdiyini bilirdi. İrəli yeriyib onun boynunu qucaqladı, bir neçə dəqiqə ata-oğul bir-birlərindən ayrılmadı. İlqarın ürəyi elə döyünürdü, az qalırdı yerindən çıxsın.

Əsəd kişi stul çəkib oğlu ilə qarşı-qarşıya əyləşdi. İlqar başını aşağı salmışdı, atasının üzünə baxa bilmirdi. Əsəd kişi oğlunun könlünü aldı:

- İşlərin necədir?

İlqarın danışmağa taqəti yox idi. Əsəd kişi dedi:

- Bilirəm, o iş pozulub, günah özlərindədi, o ailə sənə layiq deyil. Biz halal adamlarıq, evimizə haram çörək, dilimizə yalan söz gəlməyib. O qızın fikrini etmə, inşallah, ondan da yaxşısı, ağıllısı qarşına çıxar...

İlqarı fikir aparmışdı:

- Atam bunları haradan bilir, axı məndən başqa bu məsələni heç kim bilmir...

Sonra başına gələnləri ata-anasına danışdı. Anası ağladı:

- Taleyə bax, oğlumun ilk bəxti, ilk sevgisi daşa dəydi. İllərlə oğlum da, biz də bu acı içində yaşadıq. Bu ağrını unutmamış, yeni bir zərbə aldıq...

- Ağlama ana, bu mənim səhvimdir. Vaxtında atamın sözünə baxsaydım, indi bu məsələ ortalığa çıxmazdı.

Əsəd kişi dəsmalı ilə yoldaşının göz yaşlarını sildi:

- Ağlamağa dəyməz, böyük bir bəladan qurtardıq. Qurban kəsmək, nəzir-niyaz paylamaq lazımdır. Allaha qurban olum, bu iş vaxtında pozuldu. Yoxsa oğlumun ömrü əzablar, əziyyətlər içində keçərdi.

İlqar həyatda ikinci dəfə sarsıldı. Amma yıxılmadı, birinci sarsıntı onun üçün daha ağır olmuşdu. Bir neçə gün kənddə qaldı. Ürəyinin ağrıları, Sevincin göz yaşları ona rahatlıq vermədi, şəhərə qayıtdı.

Səhər tezdən işə gedirdi. Avtobus dayanacağında Sevinci gördü. Son dəblə geyinmiş, saçlarını rənglətmişdi, əhvalı yaxşı idi. İlqar bir xeyli ona baxıb köksünü ötürdü...

İş yerinə gəldi, onu mehriban qarşılayıb hal-əhval tutdular, məzuniyyətinin necə keçdiyi ilə maraqlandılar. Şəmsiyyə xanım əlində tutduğu qırmızı lentlə bağlanan qutunu stolun üstünə qoyub dedi:

- Siz məzuniyyətdə olanda bir qız gətirdi, dedi ki, İlqar müəllimə çatacaq.

İlqar Şəmsiyyəyə təşəkkür edib qutunu açdı. Qutunun içindəki nişan üzüyünə baxıb dilxor oldu. Üzüyün yanında gözəl xətlə yazılmış bir məktub da var idi. İlqar məktubu açıb oxumağa başladı. Sevinc yazırdı:

- Anamın təkidi ilə üzüyü barmağımdan göz yaşları ilə çıxardım. Və o an elə bildim ki, bütün həyatımı itirdim. Nə edim, anamın sözündən çıxa bilmirəm. İlqar, səni heç zaman unutmayacam. Sənin ola bilməyən Sevincin.

Ağrılı mənzərə idi. Sanki üzüklə məktub birləşib İlqarı barışığa səsləyir, Sevincin göz yaşlarını silməyə, ona dönməyə çağırırdı... Arada olanlar əlçatmaz dağa bənzəyirdi. İlqar geri dönmək, o yalanı bağışlamaq gücündə deyildi. Onu yeni bir həyat gözləyirdi...

...İllər göz qırpımında ötüb keçir. Ötən günlər isə yaddan çıxmır, həmişə xatırlanır. İlqar da, Sevinc də ailə qurmuşdular. Doqquz il idi bir-birlərini görmürdülər.

Payız ayı idi. Yağışlı bir havada İlqar "Sahil" metrosuna tərəf gedirdi. Arxadan kimsə adını çəkdi, dönüb baxdı. Sevinc idi, dörd-beş yaşında bir qız uşağının əlindən tutub ona tərəf gəlirdi. Salamlaşdılar, Sevinc qızını göstərib dedi:

- Mənim arzularım yarımçıq qaldı. Sağlıq olsa qızımı oğluna verəcəm.

İlqar ona heç nə demədi, heç nə soruşmadı. Aralarında yaranan sükutu Sevinc pozdu:

- Harda işləyirsən, ailəndən razısan?

İlqar Nəsimi rayon partiya komitəsində təlimatçı işlədiyini, ailəsindən də razı olduğunu söylədi.

Sevinc ondan iş telefonunu istədi. İlqar nömrəni deyib Sevincin üzünə baxdı:

- Xeyirdimi, nömrəni niyə istədin?

Sevinc bir xeyli ona baxıb dedi:

- Elə əvvəlki İlqarsan, heç dəyişməmisən, ürəyim istəyəndə sənə zəng edəcəm...

Sağollaşıb ayrıldılar.

Növbəti iş günü idi. Sevinc zəng etmişdi. İlqardan hal-əhval tutdu, bir xahiş üçün zəng etdiyini söylədi:

- Mənə yaxşı mebel lazımdır.

İlqar onun xahişini yerə salmadı. Mebel mağazasının müdirinə zəng edib yaxşı otaq dəsti verməsini xahiş etdi. Sevinc zəng edib İlqara təşəkkürünü bildirdi.

Sevinc telefonda İlqara xoş sözlər deyir, könlünü almaq istəyirdi:

- Gör neçə illərdi bir-birimizi görmürük. Bəxtim gətirmədi, anam məni istəmədiyim bir oğlana ərə verdi. O da anamın sözü ilə oturub durur.

İlqarın ona yazığı gəldi. Deməli, anası kürəkəni ilə yaşayır, bu bədbəxt isə ərinin yolunu gözləyir...

Sevinc köksünü ötürüb, dəstəyi asdı.

İlqarın iş yerini dəyişmişdilər. O, şəhər partiya komitəsində yüksək vəzifəyə irəli çəkilmişdi, Sevinc xanımın zənglərindən də canı qurtarmışdı.

Sevinc iki uşaq anası idi. Yoldaşı Natiq tikinti sahəsində işləyirdi. Aynur xanımın bir sözünü iki eləmirdi.

İlham evlənib getmişdi. Aynur xanımla arabir görüşürdü. Aynur xanım kürəkəni Natiqə maşın almışdı. Natiq ailəsindən çox Aynur xanımın qayğısına qalırdı...

Sevinc ərinin hərəkətlərindən bezmişdi. Günlərlə Natiq onun üzünə belə baxmırdı...

Axşam saat səkkiz radələri idi. Ev telefonuna zəng gəldi. Natiq kiminləsə danışıb gələcəyini söylədi. Sevinc uşaqlarına yemək hazırlayırdı. Ərinin axşamın bu vaxtında hara gedəcəyi ilə maraqlandı. Bu, birinci dəfə deyildi. Belə hallar tez-tez olurdu.

- Xeyir ola, hara gedirsən?

Natiq yalan danışdı:

- Tikintidə çətinlik çıxıb, bu gecə onu həll etməliyəm, axşam qayıtmayacam.

Sevinc heç nə demədi, uşaqlarını yedizdirib ərinin evdən çıxmasını gözlədi.

*(Davamı 11-ci səhifədə)*

*(Əvvəli 10-cu səhifədə)*

# YALAN

## *(sənədli hekayə)*

Natiq evdən çıxanda uşaqlarını qonşuya tapşırıb taksi ilə Natiqin maşınının arxasınca düşdü. Natiq maşını yavaş sürürdü, universamda düşüb bazarlıq etdi. Maşınına əyləşib yoluna davam etdi. Sevincin şübhələri çoxaldı:

- Bəs deyirdi işə gedirəm, bu bazarlıq haradan çıxdı?

İşıqfordan keçib sağa döndü. Maşının sürətini artırdı. Sevinc gözlərinə inanmadı. Natiq əlində bazarlıq ikinci mərtəbəyə qalxdı. Qapını Aynur xanım açıb onu evə dəvət elədi. Sevinc fikirləşdi ki, bəlkə anama bazarlıq edib, bir azdan durub işinə gedəcək.

Dəqiqələr ötdükcə şübhələr onu yeyirdi. Qapını döydü. Anası yataq paltarında qapını açıb Sevinci görəndə özünü itirdi:

- Xeyirdimi, gecə vaxtı nəyə gəlmisən?

Sevinc ona heç nə demədi. Natiqin ayaqqabılarını götürüb yataq otağına keçdi. Natiq yataqda uzanıb televizora baxırdı. Çılpaq idi, əynində heç nə yox idi. Sevinci görəndə oğurluq üstündə tutulan adam kimi gözlərini döyürdü. Sevinc Natiqin ayaqqabılarını anasının başına çırpıb:

- Şərəfsiz, sən necə anasan, qızının yoldaşına göz dikib, eşq yaşayırsan?! İlqar o vaxt sənin haqqında mənə demişdi. Kaş, sözünə baxaydım, indi bu rüsvayçılıqla üzləşməzdim.

Anasının yaşadığı mənzildən necə çıxdığının fərqində deyildi. Evə gəlib Natiqin paltarlarını, əşyalarını çölə tökdü. Ağlamaqdan gözləri qızarmışdı:

- Kül mənim başıma, ağılsız başıma daş düşəydi, anamın sözündən çıxmırdım. İlqarın şilləsi məni ayıltmadı, heyif, çox heyif! İlqar kimi mədəni, ziyalı, vəzifəli oğlanı itirdim. Kimə görə? Şərəfsiz, ləyaqətsiz anama görə! Atamdan, bacımdan ayrı düşdüm İlhama görə! İndi mən neyləyim, başıma haranın daşını töküm? Belə anası olan qızın yaşamağa haqqı yoxdur. Özümü necə öldürüm, bu rüsvayçılıqdan necə qurtarım? Uşaqlarımın günahı nədir? Onları kim saxlayacaq?

Bu hadisədən sonra Sevinc Natiqdən ayrıldı, anası ilə münasibətlərini kəsdi. İki övladını tək böyütdü.

O vaxtkı səhvlərini indi anlayır, yanıb-yaxılırdı, ata qapısına da getməyə üzü yox idi. O, yalanın qurbanı olmuşdu. Yalan onun həyatını cəhənnəmə döndərmişdi.

2000-ci il idi. Sevinc televizora baxırdı. Ölkə miqyaslı böyük bir tədbir keçirilirdi. Aparıcı elan etdi ki, İlqar Hüseynliyə söz verilir. İlqar müəllim şux addımlarla tribunaya qalxdı. Ölkə başçısının yanında çıxış edirdi. Sevinci ağlamaq tutmuşdu, göz yaşları yanaqları boyunca axan dağ çaylarına bənzəyirdi. Oğlu, qızı analarını sakitləşdirə bilmirdilər...

- Ana, niyə ağlayırsan?

Qızı Günelin səsiydi...

Sevinc göz yaşlarını silib İlqarı göstərdi:

- O danışan oğlanla nişanlıydıq. Anam onu istəmirdi. O, çox ləyaqətli, bütöv, gözü-könlü tox oğlan idi. Məni də çox istəyirdi. Anamın yalanları bizi ayırdı. İndi gözü yaşlı qalmışam. Yalan məni də yıxdı, evimi də dağıtdı, sevgimi, məhəbbətimi də əlimdən aldı...



Əllərini qoynuna qoyub divanda oturmuşdu. İlqarın ölkə başçısının suallarını cavablandırması gözləri önündən getmirdi.

Onunla tanış olduğu günlər, xəstəxanada ona baş çəkdiyi anlar, Əsəd kişinin insan qəlbinə hopan xoş sözləri, dənizkənarı parkda İlqarla qol-qola addımladığı o xoş dəqiqələr yadına düşmüşdü. Dağüstü parkda aldığı şillənin yeri hələ də ağrıyırdı... Üzü od tutub yanırdı, dönüb güzgüyə baxdı:

- Kaş o şillədən sonra ayılaydım... Ayılmadım...

Gecikmiş etiraf idi...